

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# Şərq qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 222 (24.359)

*30 noyabr 2023-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik

## Prezident İlham Əliyev Dövlət Təhlükəsizliyi Xidmətinin yeni inzibati binalarının açılışında iştirak edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dövlət Təhlükəsizliyi Xidmətinin yeni inzibati binalarının açılışında iştirak edib.

Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyev Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısına məlumat verildi ki, inşasına 2021-ci ilin martında başlanmış inzibati binaların tikintisi bu ilin avqustunda yekunlaşıb. İnşaat işləri müasir standartlara uyğun aparılıb, binalar bütün zəruri avadanlıq və inventarlarla təmin olunub, burada əməkdaşların xidməti fəaliyyətlərini səmərəli həyata keçirmələri üçün hər cür şərait yaradılıb.

Əvvəlcə foyedə quraşdırılmış monitorda son illər ərzində Dövlət Təhlükəsizliyi Xidmətinin mərkəzi aparatında və ərazi orqanlarında aparılan əsaslı tikinti-quruculuq işlərindən bəhs edən videoçarx nümayiş olunub.

Bildirildi ki, binanın giriş hissəsində Ümummilli Lider, Azərbaycan təhlükəsizlik orqanlarının fəxri rəhbəri, bu orqanların inkişafında müstəsna xidmətləri olan Heydər Əliyevin barelyefi qoyulub, Ulu Öndərin arxiv sənədlərinin nümayiş olunduğu guşə və dahi şəxsiyyətin mənalı ömrünün 25 ilini həsr etdiyi təhlükəsizlik orqanlarındakı fəaliyyətini əks etdirən fotoşəkillərdən ibarət stend yaradılıb.

Sonra dövlətimizin başçısı xarici xüsusi xidmət orqanları ilə qurulan tərəfdaşlıq münasibətlərinin səviyyəsini və tarixini simvolizə edən muzeydə sərgilənən eksponatlara baxıb.

Qeyd edildi ki, binada Dövlət Təhlükəsizliyi Xidmətinin mərkəzi aparatının bəzi struktur bölmələrinin yerləşdirilməsi nəzərdə tutulur. Bina iş və iclas otaqlarından, rəhbər və şəxsi heyət üçün ikimərtəbəli yeməkxanadan ibarətdir.

Dövlətimizin başçısı xidməti otaqlarla və burada əməkdaşlar üçün yaradılan şəraitlə yaxından tanış olub.

Ali Baş Komandan İlham Əliyev Dövlət Təhlükəsizliyi Xidmətinin xüsusi təyinatlı dəstəsinin istifadə etdiyi xüsusi vasitələrə, silahlara, avadanlıqlara, dron cihazlarına və xüsusi təyinatlı avtomobillərə də baxış keçirib.

Həmçinin Azərbaycan Prezidentinə digər inzibati binada yerləşən və ən son texnoloji yenilikləri özündə birləşdirən kriminalistika, əməliyyat və şəbəkə idarəetmə mərkəzləri təqdim olunub, cinayət işlərinin təhqiqatı və müvafiq əməliyyat tədbirlərinin həyata keçirilməsi istiqamətində bu mərkəzlərin imkanları barədə məruzə edilib.

Prezident İlham Əliyev şəxsi heyətin fiziki hazırlıq səviyyəsinin yüksəldilməsi məqsədilə yaradılmış və müasir idman avadanlıqları ilə təchiz edilmiş mərkəzlə də yaxından tanış olub.

Sonda Prezident İlham Əliyev şəxsi heyətə xidməti fəaliyyətlərində uğurlar arzulayıb, əməkdaşların öz vəzifələrini bundan sonra da layiqincə yerinə yetirəcəklərinə inamını ifadə edib.

**AZƏRTAC**

## Mediasiya Şurası İdarə Heyətinin sədri və regional təşkilatların rəhbərləri ilə görüş keçirilib







Noyabrın 29-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə “Heydər Əliyev: Mütərəqqi hüquq islahatlarının uğurlu davamı – mediasiya” mövzusunda keçiriləcək tədbirdə iştirak edən Azərbaycan Respublikasının Mediasiya Şurasının nümayəndə heyətini qəbul edib.

Fuad Nəcəfli Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən aparılan köklü islahatların tərkib hissəsi olan məhkəmə-hüquq islahatları çərçivəsində mediasiya proseslərinin də xüsusi önəmi olduğunu qeyd edib, muxtar respublikada görülən işlər barədə qonaqları məlumatlandırıb. Səlahiyyətli nümayəndə bildirib ki, ötən dövrdə muxtar respublikanın bölgələrində sakinlərlə görüşlər intensivləşdirilib və vətəndaş qəbulu günləri davam etdirilib. Müşahidə edilən problemlər kateqoriyalar üzrə təhlil edilərək protokollaşdırılıb, icrası üçün mərkəzi və yerli icra hakimiyyəti orqanlarına müvafiq tapşırıqlar verilib. Eyni zamanda Naxçıvanda “ASAN xidmət” mərkəzinin fəaliyyətə başlaması vətəndaş məmnunluğunu təmin edib.

“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın əhalinin rahat yaşayışı və sosial problemlərinin həllinə mühüm töhfə verəcəyini deyən Fuad Nəcəfli vurğulayıb ki, artıq növbəti ildən Dövlət Proqramının 2023-2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planı üzrə layihələrin aktiv icrasına başlanılacaq. Bununla belə vətəndaşların hüquqi maarifləndirilməsinə böyük ehtiyac var. Bu baxımdan məhkəmə-hüquq orqanlarının, mediasiya təşkilatlarının üzərinə mühüm işlər düşür. Naxçıvanda mediasiya təşkilatının fəaliyyəti təmin olunub.

Görüşdə təşkilatın Mediasiya Şurası ilə mərkəzləşdirilmiş əlaqəli işinin gücləndirilməsinin vacibliyi vurğulanıb.

Naxçıvan şəhərində Ümummilli Lider Heydər Əliyevin 100 illiyi ilə əlaqədar təşkil edilən silsilə tədbirlərin davamı olaraq Mediasiya Şurası və digər tərəfdaşlarla təşkil edilən konfransın nəticələrinin mediasiya institutunun inkişafında mühüm rolu olacağını bildirən Fuad Nəcəfli Mediasiya Şurasının fəaliyyətinə uğurlar arzu edib və konfransın təşkili üzrə tövsiyələrini bildirib.

Səmimi qəbula görə təşəkkür edən Mediasiya Şurası İdarə Heyətinin sədri Nadir Adilov qeyd edib ki, Naxçıvan Muxtar Respublikasında Mediasiya Şurası, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi və Ədliyyə Nazirliyi ilə birlikdə təşkil edilən konfransda nümayəndəliyin təşkilatçı qismində göstərdiyi əvəzsiz dəstək və təşkilatçılıq Mediasiya Şurası tərəfindən yüksək qiymətləndirilir. O, Prezident cənab İlham Əliyev tərəfindən aparılan islahatlar çərçivəsində şuranın, mediasiya təşkilatlarının və mediatorların üzərinə düşən vəzifələr barədə məlumat verib, yarandığı gündən bu günədək şuranın dövlət orqanlarının da yaxından dəstəyi ilə bir çox nailiyyətlər əldə etdiyini qeyd edib. Nadir Adilov bildirib ki, konfransın mediatorlar üçün çox böyük mənəvi mənası var.

Sonda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsinə böyük hörmət və ehtiram əlaməti olaraq ABAD sənətkarları tərəfindən Ümummilli Liderin 100 illiyi münasibətilə hazırlanmış xüsusi plaket Fuad Nəcəfliyə təqdim edilib.

**“Şərq qapısı”**

*Layihə*

# Naxçıvan Muxtar Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında Naxçıvan Muxtar Respublikasının QANUNU

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 2-ci bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

**Maddə 1.** Naxçıvan Muxtar Respublikasının 2024-cü il dövlət büdcəsinin gəlirləri 173 105 000,0 manat, xərcləri 516 365 000,0 manat, gəlir və xərcləri tənzimləmək üçün ayrılan dotasiya 343 260 000,0 manat (o cümlədən, mərkəzləşdirilmiş gəlirləri 110 474 000,0 manat, yerli gəlirləri 62 631 000,0 manat, mərkəzləşdirilmiş xərcləri 464 440 000,0 manat, yerli xərcləri 51 925 000,0 manat) məbləğində təsdiq edilsin.

**Maddə 2.** Naxçıvan Muxtar Respublikasının 2024-cü il dövlət büdcəsinin gəlirləri mədaxil mənbələri üzrə aşağıdakı məbləğlərdə nəzərdə tutulsun:

| Sıra №-si | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 2.1. | Fiziki şəxslərin gəlir vergisi | 41 590 000,0 |
| 2.2. | Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 8 200 000,0 |
| 2.3. | Hüquqi şəxslərin torpaq vergisi | 300 000,0 |
| 2.4. | Hüquqi şəxslərin əmlak vergisi | 1 900 000,0 |
| 2.5. | Əlavə dəyər vergisi | 51 350 000,0 |
| 2.6. | Sadələşdirilmiş vergi | 3 690 000,0 |
| 2.7. | Aksizlər | 49 208 000,0 |
| 2.8. | Yol vergisi | 5 000 000,0 |
| 2.8.1. | Xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələri sahibləri tərəfindən ödənilən yol vergisi | 5 000 000,0 |
| 2.9. | Mədən vergisi | 1 200 000,0 |
| 2.10. | Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar | 140 000,0 |
| 2.11. | Dövlət rüsumu | 6 387 000,0 |
| 2.12. | Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar | 4 030 000,0 |
| 2.13. | Sair daxilolmalar | 110 000,0 |

**Maddə 3.** Müəyyən edilsin ki, “Avtomobil Yolları” Məqsədli Büdcə Fondu dövlət büdcəsinin aşağıdakı mədaxil mənbələri hesabına formalaşır:

| | | |
|---|---|---|
| 3.1. | “Avtomobil Yolları” Məqsədli Büdcə Fondu | 5 870 000,0 |
| 3.1.1. | Yol vergisi | 5 000 000,0 |
| 3.1.2. | Mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər tərəfindən ödənilən sadələşdirilmiş vergi | 150 000,0 |
| 3.1.3. | Nəqliyyat vasitələrinin, o cümlədən motonəqliyyat vasitələrinin, qoşquların və yarımqoşquların texniki baxışdan keçirilməsi üçün tutulan dövlət rüsumu | 720 000,0 |

**Maddə 4.** Naxçıvan Muxtar Respublikasının 2024-cü il dövlət büdcəsinin xərcləri funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində aşağıdakı məqsədlərə yönəldilir:

| Sıra №-si | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 4.1. | Ümumi dövlət xidmətləri | 74 900 374,0 |
| 4.1.1. | qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti | 71 756 868,0 |
| 4.1.2. | elm | 3 143 506,0 |
| 4.2. | Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq | 88 675 725,0 |
| 4.2.1. | məhkəmə hakimiyyəti | 10 311 105,0 |
| 4.2.2. | Hüquq-mühafizə | 71 490 518,0 |
| 4.2.3. | prokurorluq | 6 720 490,0 |
| 4.2.4. | hüquqi yardım | 153 612,0 |
| 4.3. | Təhsil | 160 831 186,0 |
| 4.3.1. | məktəbəqədər təhsil | 10 193 650,0 |
| 4.3.2. | ümumi təhsil | 115 626 359,0 |
| 4.3.3. | peşə təhsili | 2 564 592,0 |
| 4.3.4. | orta ixtisas təhsili | 3 492 270,0 |
| 4.3.5. | təhsil sahəsində digər müəssisə və tədbirlər | 28 954 315,0 |
| 4.4. | Səhiyyə | 11 937 343,0 |
| 4.4.1. | xəstəxanalar | 6 232 949,0 |
| 4.4.2. | səhiyyə sahəsində proqramlar və digər xidmətlər | 5 704 394,0 |
| 4.5. | Sosial müdafiə və sosial təminat | 9 136 226,0 |
| 4.5.1. | sosial müdafiə | 416 866,0 |
| 4.5.2. | sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər | 8 719 360,0 |
| 4.6. | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət | 25 800 855,0 |
| 4.6.1. | mədəniyyət və incəsənət sahəsində fəaliyyət | 17 891 230,0 |
| 4.6.2. | televiziya, radio və nəşriyyat | 5 318 231,0 |
| 4.6.3. | bədən tərbiyəsi və gənclər siyasəti | 618 195,0 |
| 4.6.4. | yaradıcı ittifaq, cəmiyyət və dini tədbirlər | 402 977,0 |
| 4.6.5. | mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər müəssisə və tədbirlər | 1 570 222,0 |
| 4.7. | Mənzil və kommunal təsərrüfatı | 18 632 520,0 |
| 4.7.1. | mənzil təsərrüfatı | 805 211,0 |
| 4.7.2. | kommunal təsərrüfatı | 14 266 343,0 |
| 4.7.3. | mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər | 3 560 966,0 |
| 4.8. | Kənd təsərrüfatı | 47 130 951,0 |
| 4.8.1. | kənd təsərrüfatı tədbirləri | 11 989 753,0 |
| 4.8.2. | baytarlıq | 3 267 042,0 |
| 4.8.3. | meliorasiya | 31 874 156,0 |
| 4.9. | Ətraf mühitin mühafizəsi | 15 536 745,0 |
| 4.9.1. | bioloji zənginliyin qorunması | 599 130,0 |
| 4.9.2. | torpaq və yerquruluşu | 820 000,0 |
| 4.9.3. | hidrometeorologiya tədbirləri | 1 657 102,0 |
| 4.9.4. | meşə təsərrüfatı | 752 850,0 |
| 4.9.5. | ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi | 11 262 163,0 |
| 4.9.6. | ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər | 445 500,0 |
| 4.10. | İqtisadi fəaliyyət | 54 075 586,0 |
| 4.10.1. | nəqliyyat və rabitə | 17 115 763,0 |
| 4.10.2. | İqtisadi və kommersiya fəaliyyəti | 1 209 823,0 |
| 4.10.3. | tikinti və şəhərsalma | 22 000 000,0 |
| 4.10.3.1. | dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 22 000 000,0 |
| 4.10.4. | geodeziya və faydalı qazıntılar | 500 000,0 |
| 4.10.5. | yanacaq və enerji kompleksi | 10 000 000,0 |
| 4.10.6. | iqtisadi fəaliyyət ilə bağlı digər xidmətlər | 3 250 000,0 |
| 4.11. | Əsas bölmələrə aid edilməyən xərclər | 9 707 489,0 |
| 4.11.1. | ehtiyat fondları | 2 000 000,0 |
| 4.11.1.1. | Naxçıvan Muxtar Respublikasının Ehtiyat Fondu | 2 000 000,0 |
| 4.11.2. | məqsədli büdcə fondları | 5 870 000,0 |
| 4.11.2.1. | “Avtomobil Yolları” Məqsədli Büdcə Fondu | 5 870 000,0 |
| 4.11.3. | əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət | 1 837 489,0 |
| 4.11.3.1. | fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər | 1 000 000,0 |
| 4.11.3.2. | digər tədbirlər üzrə xərclər | 837 489,0 |

**Maddə 5.** Naxçıvan Muxtar Respublikasının 2024-cü il dövlət büdcəsinin xərcləri funksional və iqtisadi təsnifatın paraqrafları səviyyəsində bu Qanunun əlavəsində verilmiş məbləğlərdə təsdiq edilsin.

**“Maddə 6.** Naxçıvan Muxtar Respublikasının şəhər və rayonları üzrə gəlirlər 62 781 000,0 manat, o cümlədən “Avtomobil Yolları” Məqsədli Büdcə Fonduna aid olan məbləğ 150 000,0 manat, yerli xərclər 51 925 000,0 manat, gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsinin məbləği 19 377 000,0 manat, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi 8 671 000,0 manat məbləğində təsdiq edilsin.

**(manatla)**

| Sıra №-si | Şəhər və rayonların adı | Gəlirlər: Cəmi | Gəlirlər: o cümlədən “Avtomobil Yolları” Məqsədli Büdcə Fonduna aid olan məbləğ | Yerli xərclər | Gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsinin aşağı həddi | Yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi |
|---|---|---|---|---|---|---|
| | **Şəhər** | | | | | |
| 1. | Naxçıvan | 36 852 000 | 40 000 | 18 044 000 | 18 768 000 | |
| | **Rayonlar** | | | | | |
| 2. | Şərur | 7 699 000 | 20 000 | 7 679 000 | | |
| 3. | Babək | 5 904 000 | 40 000 | 5 255 000 | 609 000 | |
| 4. | Ordubad | 3 000 000 | 10 000 | 5 519 000 | | 2 529 000 |
| 5. | Culfa | 3 100 000 | 20 000 | 5 537 000 | | 2 457 000 |
| 6. | Şahbuz | 2 600 000 | 12 000 | 4 468 000 | | 1 880 000 |
| 7. | Kəngərli | 3 021 000 | 7 000 | 3 014 000 | | |
| 8. | Sədərək | 605 000 | 1 000 | 2 409 000 | | 1 805 000 |
| | **Cəmi:** | **62 781 000** | **150 000** | **51 925 000** | **19 377 000** | **8 671 000** |

**Maddə 7.** Dövlət büdcəsinin icrası prosesində “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinə əsasən müdafiə olunan xərc maddələri, ilk növbədə, digər xərc maddələri isə dövlət büdcəsinin daxilolmalarının vəziyyətindən asılı olaraq maliyyələşdirilir.

**Maddə 8.** Bu Qanun 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini** **Anar İBRAHİMOV**

# Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamənin və nazirliyin strukturunun təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).
2. “Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinin strukturu” təsdiq edilsin (əlavə olunur).
3. “Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə”nin və nazirliyin strukturunun təsdiq edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2009-cu il 20 fevral tarixli 155-III FR nömrəli Fərmanı ləğv edilsin.
4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini** **Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 29 noyabr 2023-cü il*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 29 noyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir***

# Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi haqqında ƏSASNAMƏ

## 1. Ümumi müddəalar

1.1. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi (bundan sonra – Nazirlik) Naxçıvan Muxtar Respublikasının maliyyə siyasətini işləyib hazırlayan və həyata keçirən, dövlət maliyyəsinin idarə olunmasını təşkil edən, Naxçıvan Muxtar Respublikasının büdcəsi (bundan sonra – dövlət büdcəsi) layihəsini hazırlayan və dövlət büdcəsinin kassa icrasını təmin edən, mühasibat uçotunun təşkili və aparılması sahələrində dövlət tənzimlənməsinin, dövlət büdcəsi vəsaitindən istifadə sahələrində dövlət nəzarətinin həyata keçirilməsini təmin edən mərkəzi icra hakimiyyəti orqanıdır.

1.2. Nazirlik öz fəaliyyətində Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını və qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni rəhbər tutur.

1.3. Nazirlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Nazirlik müstəqil balansa, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamp və blanklara malikdir.

1.5. Nazirliyin saxlanma xərcləri və fəaliyyəti dövlət büdcəsi və qanunvericiliklə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Nazirlik Naxçıvan şəhərində yerləşir.

Ardı 3-cü səhifədə

**2. Nazirliyin fəaliyyət istiqamətləri**

2.0. Nazirliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.0.1. muxtar respublikada maliyyə, büdcə, vergi sahəsində dövlət siyasətinin həyata keçirilməsini aidiyyəti dövlət orqanlarının və digər təşkilatların iştirakı ilə təmin edir;

2.0.2. dövlət büdcəsinin layihəsinin mövcud qanunvericiliyə uyğun olaraq hazırlanmasını təmin edir;

2.0.3. qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət büdcəsinin icrasını təmin edir, dövlət büdcəsindən ayrılan vəsaitlərin və dövlət zəmanəti ilə alınan kreditlərin təyinatı üzrə xərclənməsi üzərində dövlət maliyyə nəzarətinin həyata keçirilməsini təşkil edir;

2.0.4. Naxçıvan Muxtar Respublikası ərazisində fəaliyyət göstərən hüquqi şəxslər, habelə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər tərəfindən mühasibat uçotunun təşkili və aparılması, o cümlədən maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi sahəsində dövlət siyasətini işləyib hazırlayır və həyata keçirilməsi üzrə tədbirlər görür;

2.0.5. Naxçıvan Muxtar Respublikasında audit fəaliyyətinin həyata keçirilməsi ilə bağlı təkliflər verir;

2.0.6. dövlət investisiya proqramlarının tərtib olunmasında, dövlət investisiya siyasətinin, dövlət proqramlarının inkişaf konsepsiyası və strategiyalarının hazırlanmasında və həyata keçirilməsində qanunvericiliklə müəyyən edilmiş qaydada iştirak edir;

2.0.7. büdcə sistemi, vergi, dövlət xəzinədarlığı, dövlət maliyyə nəzarəti, audit, mühasibat uçotunun təşkili və aparılması sahəsində qanunvericiliklə və bu Əsasnamə ilə Nazirliyin fəaliyyət dairəsinə aid edilmiş digər məsələlər üzrə normativ-hüquqi tənzimlənməni həyata keçirir;

2.0.8. Naxçıvan Muxtar Respublikasında makroiqtisadi göstəricilərin proqnozlaşdırılması, iqtisadiyyatın dövlət tənzimlənməsi, onun inkişaf istiqamətləri barədə təkliflər hazırlayır;

2.0.9. Nazirliyin fəaliyyət istiqamətləri üzrə sahəvi, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının fəaliyyətini əlaqələndirir;

2.0.10. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

**3. Nazirliyin vəzifələri**

3.0. Nazirlik bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri həyata keçirir:

3.0.1. aidiyyəti dövlət orqanları ilə birlikdə muxtar respublika iqtisadiyyatının mövcud vəziyyətini təhlil etmək və sosial-iqtisadi problemlərin həllinə dair təkliflər vermək;

3.0.2. maliyyə, büdcə, vergi, mühasibat uçotu və audit fəaliyyəti sahəsində dövlət siyasətinin hazırlanmasına və təkmilləşdirilməsinə dair təkliflər vermək;

3.0.3. dövlət büdcəsinin gəlirlərinin və xərclərinin proqnozlaşdırılmasını beynəlxalq standartlara uyğun metodologiya əsasında aparmaq, hər il növbəti büdcə ili üzrə dövlət büdcəsinin layihəsini və sonrakı üç il üçün büdcə göstəricilərini hazırlayıb qanunvericilikdə nəzərdə tutulmuş qaydada təqdim etmək, dövlət büdcəsinin tərtibi və icrası prosesinin təkmilləşdirilməsi barədə təkliflər vermək;

3.0.4. müvafiq büdcə ili üzrə dövlət büdcəsinin təsdiq olunmuş göstəriciləri əsasında onun vahid büdcə təsnifatına uyğun olaraq mənbələr üzrə müvafiq mərkəzi icra hakimiyyəti orqanları ilə razılaşdırmaqla gəlirlərinin və xərclərinin rüblük, zəruri hallarda aylıq bölgüsünü müəyyən etmək və aidiyyəti təşkilatlara göndərmək;

3.0.5. dövlət satınalmalarının dövlət vəsaitindən səmərəli və qənaətlə istifadə edilməsi prinsipləri əsasında həyata keçirilməsini təmin etmək məqsədilə həmin sahə üzrə dövlət tənzimlənməsində, dövlət siyasətinin, normativ-hüquqi aktların hazırlanmasında və ekspertizasının aparılmasında, həmçinin dövlət satınalmaları haqqında qanunvericiliklə müəyyən edilmiş hallarda dövlət müəssisələri və büdcədən maliyyələşən təşkilatlar tərəfindən malların (iş və xidmətlərin) satınalınması üzrə yaradılan tender komissiyalarının işində iştirak etmək;

3.0.6. müəyyən olunmuş qaydada, lakin büdcə proqnozlarından, dövlət büdcəsinin təsdiq olunmuş göstəricilərindən artıq olmamaq şərtilə büdcə xərcləri üzrə dövlətin adından büdcə təşkilatları qarşısında öhdəlik götürmək, bu öhdəliklər çərçivəsində alınmış mal, iş və xidmətləri xəzinə uçotuna qəbul etmək və kassa xərcləri aparmaq, dövlət büdcəsindən maliyyələşən təşkilatların sifarişinə və məxaric cədvəllərinə əsasən onların xərc smetalarında nəzərdə tutulmuş vəsaitlər həddində maliyyələşməsini həyata keçirmək və həmin maliyyə əməliyyatlarının uçotunu təşkil etmək;

3.0.7. dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsi nəzərdə tutulan dövlət proqramlarının və inkişaf konsepsiyalarının icrası ilə əlaqədar maliyyə təminatını həyata keçirmək;

3.0.8. zərurət yarandıqda, müvafiq büdcə ili ərzində qanunvericiliyə uyğun olaraq dövlət büdcəsinin dəqiqləşdirilməsi barədə təkliflər hazırlamaq;

3.0.9. büdcə xərcləri üzrə müəyyən olunmuş limitdən artıq borc yaradan təşkilatlar barədə qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.0.10. dövlət büdcəsinin icrasına, dövlət büdcəsindən, o cümlədən məqsədli büdcə fondlarından ayrılan vəsaitlərdən təyinatı üzrə istifadə olunmasına, habelə büdcə təşkilatlarının büdcədənkənar əməliyyatlar üzrə vəsaitlərinin əldə edilməsinə və maliyyə orqanları ilə razılaşdırılmış qaydada təsdiq edilmiş smetaya uyğun istifadəsinə nəzarəti həyata keçirmək;

3.0.11. dövlət büdcəsinin icrası haqqında aylıq, rüblük və illik hesabatları tərtib etmək və onları müvafiq dövlət orqanlarına təqdim etmək;

3.0.12. dövlət büdcəsi ilə digər büdcələrin qarşılıqlı əlaqələrinin nizamlanmasını və qarşılıqlı hesablaşmaları həyata keçirmək;

3.0.13. dövlət büdcəsinin icrası prosesində, zərurət yarandıqda, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri ilə razılaşdırmaqla, təsdiq olunmuş büdcə ayırmaları həddində, funksional təsnifatın bölmələri daxilində, iqtisadi təsnifatın bölmə, köməkçi bölmə, paraqraf, maddə və yarımmaddələri arasında dəyişikliklər etmək;

3.0.14. dövlət büdcəsinin icrası prosesində iqtisadi təsnifatın müvafiq bölmə, köməkçi bölmə, paraqraf, maddə və yarımmaddələrində nəzərdə tutulmuş vəsaitlər üzrə hesabat ili ərzində yaranmış qənaətin dövlət büdcəsinin ehtiyat fonduna yönəldilərək, il ərzində digər tədbirlərin maliyyələşdirilməsinə sərf edilməsi barədə təkliflərin hazırlanmasında iştirak etmək;

3.0.15. büdcə gəlirlərinin proqnozlaşdırılmasını və ona metodiki rəhbərliyi, habelə maliyyə ehtiyatlarının aşkara çıxarılması və səfərbər olunması üçün zəruri tədbirlər həyata keçirmək;

3.0.16. qanunvericilikdə müəyyən edilmiş hallarda digər ciddi hesabat blanklarının, habelə ciddi hesabat sənədi kimi tətbiq edilən blankların mərkəzləşdirilmiş qaydada sifarişini, təqdim edilməsini və uçotunun aparılmasını təmin etmək;

3.0.17. Naxçıvan Muxtar Respublikasında təşkilati-hüquqi formasından asılı olmayaraq, təşkilatların və fərdi sahibkarların maliyyə-təsərrüfat fəaliyyətində əmtəə-pul dövriyyəsini əks etdirən xüsusi seriya və nömrəyə malik ilkin uçot sənədi olan ciddi hesabat blanklarının forma və rekvizitlərinin işlənib hazırlanmasını və müəyyən olunmuş qaydada təsdiq edilməsini təmin etmək;

3.0.18. qanunvericilikdə nəzərdə tutulmuş qaydada dövlət büdcəsinə artıq ödənilmiş vergilərin və qeyri-vergi ödənişlərinin dövlət büdcəsindən qaytarılmasını həyata keçirmək;

3.0.19. dövlət büdcəsindən ayrılan vəsaitlərlə bağlı xərclər smetasının tərtibi, təsdiqi və icrasının ümumi qaydalarını müəyyən etmək;

3.0.20. büdcə təşkilatlarında, onların tabeliyində fəaliyyət göstərən qeyri-büdcə qurumlarında, büdcədənkənar dövlət fondlarında, habelə həmin təşkilatların tabeliyində fəaliyyət göstərən təsərrüfathesablı müəssisələrdə dövlət büdcəsindən ayrılan vəsaitlərin, o cümlədən məqsədli büdcə fondlarının, büdcə təşkilatlarının büdcədənkənar əməliyyatlar üzrə vəsaitlərinin əldə edilməsi və xərclənməsi üzərində dövlət maliyyə nəzarətinin həyata keçirilməsini təmin etmək;

3.0.21. yerli maliyyə orqanlarının xəzinə əməliyyatlarının aparılmasına bank xidməti göstərilməsi üçün Agent-bankların seçilməsi barədə təkliflər vermək;

3.0.22. qanunvericiliklə müəyyən olunmuş qaydada məhkəmə qərarlarına və hüquq-mühafizə orqanlarının müraciətlərinə əsasən idarə, müəssisə və təşkilatlarda, məqsədli büdcə və büdcədənkənar dövlət fondlarında təftiş və yoxlamalar aparmaq;

3.0.23. dövlət maliyyə nəzarəti tədbirləri nəticəsində tərkibində cinayət əlamətləri olan maliyyə pozuntuları aşkarlandığı hallarda mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq yoxlama materiallarını hüquq-mühafizə orqanlarına göndərmək;

3.0.24. Azərbaycan Respublikasının sığorta qanunvericiliyinə uyğun olaraq sığorta işinin inkişafı və təkmilləşdirilməsi ilə bağlı səlahiyyətləri daxilində tədbirlər həyata keçirmək;

3.0.25. qanunla nəzərdə tutulmuş qaydada və hallarda cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı nəzarət orqanının funksiyalarını həyata keçirmək;

3.0.26. dövlətə məxsus olan hüquqi şəxslərin daxili və xarici borcalmasının yuxarı həddini müəyyənləşdirmək üçün təkliflər vermək;

3.0.27. dövlətə məxsus olan hüquqi şəxslərin daxili və xarici borcalmasına razılıq vermək və ya ondan imtina barədə qərar qəbul etmək;

3.0.28. dövlət investisiya proqramlarının layihələrinin növbəti il üzrə dövlət büdcəsinin layihəsinə, habelə sonrakı üç il üzrə büdcə göstəricilərinə uyğunluğuna və həmin proqram layihələrinin maliyyə təminatına dair rəy vermək;

3.0.29. investisiya fəaliyyəti, investisiyaların qoyulması və təşviqi sahəsində, o cümlədən kreditlərin, maliyyə və texniki yardımların (qrantların) və sair formada maliyyə vəsaitlərinin cəlb edilməsində, dövlət investisiya proqramlarının hazırlanması və həyata keçirilməsində, habelə həmin proqramların icrası üçün nəzərdə tutulan vəsaitlərin konkret layihələr üzrə bölgüsündə iştirak etmək;

3.0.30. dövlət proqramlarının layihələrinin, həmçinin dövlət büdcəsinin vəsaiti və dövlət zəmanəti ilə alınan kreditlər hesabına həyata keçirilən digər layihələrin maliyyə ekspertizasını həyata keçirmək, təşkilati-hüquqi formasından asılı olmayaraq, dövlət vəsaitləri hesabına maliyyələşdirilməsi nəzərdə tutulan qurumların yaradılmasına, dövlət büdcəsindən maliyyələşən qurumların strukturunun, əməyinin ödənilməsi sisteminin təkmilləşdirilməsinə və ştat vahidlərinin müəyyən edilməsinə rəy və təkliflər vermək;

3.0.31. iqtisadiyyata investisiyaların cəlb edilməsi, kreditlərin (o cümlədən dövlət zəmanəti ilə alınmış kreditlərin), qrantların, maliyyə (texniki) yardımlarının alınması ilə bağlı, habelə investisiya layihələri üzrə danışıqlarda iştirak etmək;

3.0.32. aidiyyəti dövlət orqanları ilə birlikdə dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşməsi nəzərdə tutulan investisiya və innovasiya proqramlarının hazırlanmasında iştirak etmək, ayrılan vəsaitdən səmərəli istifadə olunmasına nəzarət etmək;

3.0.33. dövlət büdcəsindən maliyyələşən idarə və təşkilatlarda vəzifə (tarif) maaşlarının düzgün tətbiqinə nəzarət etmək, dövlət orqanlarının strukturunun təkmilləşdirilməsi və ştat vahidlərinin müəyyən edilməsi ilə bağlı təkliflər vermək;

3.0.34. büdcədən maliyyələşən təşkilatlarda çalışan işçilərin əməyinin ödənilməsi sisteminin təkmilləşdirilməsi və əhalinin sosial müdafiəsi üzrə tədbirlərin həyata keçirilməsində iştirak etmək;

3.0.35. dövlət idarə, müəssisə və təşkilatlarının, o cümlədən məqsədli büdcə və büdcədənkənar dövlət fondlarının maliyyə-təsərrüfat fəaliyyətini təhlil etmək;

3.0.36. peşəkar mühasib sertifikatı almış şəxslərin dövlət reyestrinin aparılmasını təmin etmək, peşəkar mühasib təşkilatının akkreditasiya olunmasını həyata keçirmək;

3.0.37. “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda muxtar respublikada mühasibat uçotu sahəsində dövlət nəzarətini həyata keçirmək;

3.0.38. Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının, İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarının, Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının və uçot qaydalarının tətbiqi ilə bağlı təlim kursları, seminarlar, konfranslar təşkil etmək və digər zəruri tədbirləri həyata keçirmək;

3.0.39. “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, kommersiya təşkilatlarının ictimai əhəmiyyətli qurumlara aid edilməsi üçün meyar göstəricilərinə dair təkliflərini hər üç ildən bir aprel ayının 30-dək Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etmək;

3.0.40. məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında dövlət mülkiyyətinə keçməklə müsadirə edilmiş, qanunvericiliyə uyğun olaraq sahibsiz hesab edilən, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakın və dövlətin maliyyə orqanlarına təhvil verilən dəfinələrin operativ uçotunun aparılmasını təşkil etmək;

3.0.41. qanunvericiliyə uyğun olaraq qiymət-tarif siyasətinin həyata keçirilməsi üçün qiymətləri dövlət tərəfindən tənzimlənən məhsulların (iş və xidmətlərin) qiymətlərinin və tariflərinin tənzimləmə qaydalarının hazırlanmasında iştirak etmək;

3.0.42. dövlət büdcəsinin layihəsinin tərtibi, təsdiq edilmiş göstəricilərə uyğun olaraq büdcə xərclərinin bölgüsü, dövlət büdcəsinin kassa icrası, dövlət maliyyə nəzarəti, mühasibat uçotunun beynəlxalq standartlar əsasında inkişaf etdirilməsi və maliyyə hesabatlarının tərtibi sahələrində öz səlahiyyətləri çərçivəsində normativ tənzimləməni həyata keçirmək;

3.0.43. Nazirliyin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq lisenziyaların və ya icazələrin, onların dublikatlarının və əlavələrinin verilməsi, onların yenidən rəsmiləşdirilməsi, dayandırılması, bərpası və ya ləğvi ilə bağlı rəy, həmçinin müvafiq fəaliyyət növlərinə icazə vermək və icazə şərtlərinə riayət olunmasına nəzarət etmək;

3.0.44. qanunvericiliklə nəzərdə tutulmuş hallarda və qaydada müvafiq inzibati xətalar haqqında işlərə baxmaq;

3.0.45. maliyyə orqanları işçilərinin peşə hazırlığı, əlavə təhsili, habelə maliyyə orqanları üçün mütəxəssislərin hazırlanması ilə bağlı tədbirlər həyata keçirmək;

3.0.46. maliyyə və mühasibatlıq sahəsində çalışan işçilərin peşə hazırlığının təkmilləşdirilməsi, ixtisaslarının artırılması və yenidən hazırlanmasını həyata keçirmək;

3.0.47. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin muxtar respublikada həyata keçirilməsində iştirak etmək;

3.0.48. insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;

3.0.49. Nazirliyin fəaliyyəti ilə bağlı vətəndaşlardan daxil olan təklif, ərizə və şikayətlərə baxılmasını və onların qəbulunu təmin etmək, daxil olmuş müraciətlərə vaxtında, o cümlədən internet saytı vasitəsilə cavab vermək və qanunvericiliklə müəyyən edilmiş qaydada digər tədbirlər görmək;

3.0.50. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını, malik olduğu və siyahısı qanunvericiliklə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin saytda yerləşdirilməsini və bu informasiyanın daimi yeniləşdirilməsini təmin etmək;

3.0.51. Nazirliyin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində tədbirlər görmək, onun strukturuna daxil olan qurumların işini əlaqələndirmək və onların fəaliyyətinə nəzarəti həyata keçirmək;

3.0.52. Nazirliyin tabeliyində olan qurumlar tərəfindən onların səlahiyyətləri daxilində müvafiq vəzifələrin yerinə yetirilməsi üçün istifadə edilən büdcə vəsaitinin təyinatı üzrə istifadəsi proqramlarını və xərclər smetalarını təsdiq etmək, həmin vəsaitlərin təyinatı üzrə istifadəsi üzərində nəzarətin həyata keçirilməsini təmin etmək;

3.0.53. tabeliyində olan qurumlarda dövlət qulluğu keçmə və əmək münasibətləri məsələlərini tənzimləyən tədbirlər görmək;

3.0.54. qanunvericiliyə uyğun olaraq dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

3.0.55. digər icra hakimiyyəti orqanlarının dövlət büdcəsi, mühasibat uçotunun təşkili və aparılması, dövlət maliyyə nəzarəti sahələri ilə bağlı fəaliyyətini əlaqələndirmək;

3.0.56. Nazirliyin fəaliyyət sahələrinə ayrılan büdcə vəsaitləri, kreditlər, qrantlar və digər maliyyə vəsaitlərindən təyinatı üzrə səmərəli istifadə olunması üçün tədbirlər görmək və ona nəzarət etmək;

3.0.57. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

**4. Nazirliyin hüquqları**

4.0. Nazirlik öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.0.1. mövcud qanunvericiliklə müəyyən edilmiş müddət ərzində və qaydada növbəti büdcə ili üzrə dövlət büdcəsinin layihəsinin, sonrakı üç il üçün büdcə göstəricilərinin tərtibi üçün lazım olan əsaslandırıcı materialları və hesablamaları mərkəzi və yerli icra hakimiyyəti orqanlarından, habelə onların struktur bölmələrindən, dövlət büdcəsindən maliyyələşən büdcə təşkilatlarından, zərurət yarandıqda, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, digər hüquqi şəxslərdən,

Ardı 4-cü səhifədə

bələdiyyələrdən və büdcədənkənar dövlət fondlarından almaq;

4.0.2. büdcə təşkilatları və dövlət büdcəsindən dotasiya, subsidiya, subvensiya və digər maliyyə yardımları alan təşkilatlardan həmin vəsaitlərdən istifadə barədə müəyyən olunmuş qaydada rüblük və ilin əvvəlindən artan yekunla funksional, iqtisadi və inzibati təsnifat üzrə hesabatlar almaq;

4.0.3. ayrılmış vəsaitlərin təyinatı üzrə xərclənməməsi halları aşkar olunduqda, kredit resursundan artıq xərcə yol verildikdə, əvvəl ayrılmış vəsaitlərin xərclənməsinə dair hesabatların vaxtında və düzgün təqdim edilmədiyi hallarda müvafiq icra hakimiyyəti orqanlarının rəhbərlərini xəbərdar etməklə müəssisələrin, idarələrin və təşkilatların dövlət büdcəsindən maliyyələşdirilməsini (müdafiə olunan xərclər istisna olmaqla) məhdudlaşdırmaq və artıq ödənilmiş vəsaiti qanunvericiliklə nəzərdə tutulmuş qaydada dövlət büdcəsinə bərpa etdirmək;

4.0.4. dövlət büdcəsindən, o cümlədən məqsədli büdcə fondlarından ayrılmış və təyinatı üzrə istifadə olunmayan vəsaitləri qanunvericiliklə müəyyən olunmuş qaydada müəssisələrdən, idarələrdən, təşkilatlardan və bələdiyyələrdən geri almaq üçün tədbirlər görmək;

4.0.5. dövlət büdcəsinin mədaxil hissəsini təmin edən müvafiq icra hakimiyyəti orqanlarından mütəmadi olaraq rəsmi məlumatlar, hesablanmış vergilər və qeyri-vergi daxilolmaları barədə hesabatlar, gəlirlər üzrə proqnozların yerinə yetirilməsi barədə arayışlar almaq, dövlət büdcəsinin gəlirləri proqnozlaşdırılan məbləğdən aşağı olduqda səbəbini araşdırmaq, müvafiq arayışlar hazırlamaq və aidiyyəti üzrə təqdim etmək;

4.0.6. dövlət orqanlarından, təşkilati-hüquqi formasından asılı olmayaraq, hüquqi şəxslərdən dövlət büdcəsinin və məqsədli büdcə fondlarının icrası, büdcə təşkilatlarının büdcədənkənar vəsaitlərindən və dövlət zəmanəti ilə alınmış və dövlət büdcəsinin vəsaitləri hesabına verilmiş kreditlərdən istifadə haqqında statistik və digər hesabat göstəriciləri almaq;

4.0.7. aidiyyəti dövlət orqanları ilə birlikdə dövlət büdcəsi gəlirlərinin artırılması imkanlarının araşdırılması məqsədilə dövlət mülkiyyətində olan müəssisələrin maliyyə-təsərrüfat fəaliyyətini təhlil etmək və bu təhlil üçün tələb olunan məlumat və sənədləri həmin müəssisələrdən sorğu etmək və almaq;

4.0.8. müxtəlif layihələrin icrası üçün dövlət zəmanəti ilə alınmış və dövlət büdcəsinin vəsaitləri hesabına verilmiş kreditlərin təyinatı üzrə xərclənməsinin yoxlanılmasını təmin etmək;

4.0.9. maliyyə nəzarəti tədbirlərinin həyata keçirildiyi dövlət təşkilatlarında, büdcə və büdcədənkənar dövlət fondlarında malların (iş və xidmətlərin) satın alınmasının qanuniliyinin dəqiqləşdirilməsi zərurəti yarandıqda, bu məqsəd üçün vəsaitin ödəndiyi digər təşkilatlarla, o cümlədən qeyri-hökumət təşkilatları ilə müəyyən edilmiş qaydada maliyyə nəzarəti obyektinin vəsaitlərinin xərclənməsi üzrə sənədlərin qarşılıqlı yoxlanılmasını aparmaq;

4.0.10. aparılan nəzarət yoxlamalarının nəticələri üzrə müvafiq tədbir görülməsi üçün aidiyyəti dövlət orqanlarına təqdimatlar vermək;

4.0.11. maliyyə nəzarəti tədbirlərinin həyata keçirilməsi zamanı dövlət vəsaitlərinin xərclənməsində cinayət əlamətləri olan qanun pozuntusu aşkar olunduğu halda nəzarət obyektlərindən ilkin sənədləri götürmək üçün hüquq-mühafizə, prokurorluq və məhkəmə orqanlarına təqdimatlar vermək;

4.0.12. icra hakimiyyəti orqanları tərəfindən işlənib hazırlanmış mühasibat uçotu sahəsində normativ-hüquqi aktların təsdiq edilməsinə razılıq vermək;

4.0.13. ciddi hesabat blanklarının istifadəsinə nəzarəti həyata keçirmək;

4.0.14. iri dövlət vergiödəyicilərinin gəlir və xərclər smetalarının layihələrini aidiyyəti orqanlarla birlikdə razılaşdırmaq və onların gəlir və xərclər smetalarının icrasına nəzarətin təmin edilməsi üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirlər görmək;

4.0.15. Nazirliyin səlahiyyətlərinə aid edilən məsələlərlə bağlı məhkəmədə iddiaçı və cavabdeh qismində çıxış etmək;

4.0.16. müvafiq sahə üzrə dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.0.17. Nazirliyin səlahiyyətlərinə aid olan normativ aktların layihəsini hazırlamaq və ya onların hazırlanmasında iştirak etmək;

4.0.18. fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, maliyyə sahəsi üzrə elmi tədqiqatlar aparmaq, təkliflər vermək;

4.0.19. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

4.0.20. qanunvericiliklə müəyyən edilmiş qaydada xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

4.0.21. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

**5. Nazirliyin fəaliyyətinin təşkili**

5.1. Nazirliyin Aparatı, onun strukturuna daxil olan qurumlar və strukturuna daxil olmayan tabeliyindəki qurumlar (hüquqi şəxslər, təşkilatlar və sair) Nazirliyin vahid sistemini təşkil edir. Nazirlik öz fəaliyyətini bilavasitə və həmin qurumlar vasitəsilə həyata keçirir.

5.2. Nazirliyin strukturu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən təsdiq edilir. Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların və sair) siyahısını Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti təsdiq edir.

5.3. Nazirliyin işçilərinin ümumi say tərkibi Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

5.4. Nazirliyin fəaliyyətinə Azərbaycan Respublikasının Konstitusiyasının 139-cu maddəsinin I hissəsinin 5-ci bəndinə, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 5-ci bəndinə və 5-ci maddəsinin I hissəsinin 7-ci bəndinə əsasən vəzifəyə təyin və vəzifədən azad olunan nazir rəhbərlik edir.

5.5. Maliyyə nazirinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad olunan bir müavini vardır.

5.6. Nazir müavini ona nazir tərəfindən həvalə edilmiş vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyır.

5.7. Nazirliyin strukturuna daxil olan qurumlar onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və hüquqlarının həyata keçirilməsi üçün birbaşa məsuliyyət daşıyırlar və öz səlahiyyətləri daxilində müstəqil sərəncam vermək hüququna malikdirlər.

5.8. Nazir:

5.8.1. Nazirliyin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.8.2. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Nazirliyin aparatının, yerli və digər qurumlarının strukturunu, ştat cədvəlini və ayrılmış büdcə təxsisatı daxilində onların xərclər smetasını təsdiq edir;

5.8.3. Nazirliyin aparatının struktur bölmələrinin və tabeliyində olan qurumların (əsasnamələri Naxçıvan Muxtar Respublikasının Ali Məclisi sədri tərəfindən təsdiq edilən qurumları istisna olmaqla) əsasnamələrini təsdiq edir, tabeliyində olan hüquqi şəxslərin nizamnamələrini isə təsdiq edilməsi üçün müəyyən olunmuş qaydada təqdim edir;

5.8.4. Nazirliyin strukturunda olan qurumların büdcə vəsaitinə tələbatına dair təkliflər hazırlayır və aidiyyəti üzrə dövlət orqanlarına təqdim edir;

5.8.5. maliyyə, büdcə, mühasibat uçotu və audit sahələrində dövlət siyasətinin həyata keçirilməsi ilə bağlı təklifləri, qanun və digər normativ-hüquqi aktların layihələrini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə və Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim edir;

5.8.6. müavinin və Nazirliyin digər vəzifəli şəxslərinin səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;

5.8.7. Nazirliyin aparatında çalışan dövlət qulluqçularını, Nazirliyin strukturuna daxil olan orqanların rəhbərlərini, onların müavinlərini, struktur bölmələrinin rəhbərlərini, habelə Nazirliyin yerli bölmələrinin, tabeliyində olan digər qurumların (Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin vəzifəyə təyin və vəzifədən azad etdiyi şəxslər istisna olmaqla) rəhbərlərini və onların müavinlərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

5.8.8. Nazirliyin aparatının fəaliyyətinə dair qanunvericiliyə uyğun olaraq icrası məcburi olan əmrlər, sərəncamlar, göstərişlər verir, habelə normativ-hüquqi aktları təsdiq edir (imzalayır), onların icrasını təşkil edir və nəzarəti həyata keçirir;

5.8.9. Nazirliyin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

5.8.10. dövlət orqanları, idarə, müəssisə və təşkilatlar ilə münasibətlərdə Nazirliyi təmsil edir;

5.8.11. Nazirliyin işçilərinin ümumi say tərkibi və strukturu barədə təkliflər verir;

5.8.12. Nazirliyin aparatının və tabeliyində olan qurumların funksional təyinatını və işçilərin say həddi daxilində say tərkibini müəyyən edir, zərurət olduqda onlarda dəyişikliklər aparır;

5.8.13. korrupsiyaya qarşı tədbir görür;

5.8.14. dövlət büdcəsindən Nazirliyə ayrılmış maliyyə vəsaitini idarə edir, tabeliyindəki qurumlar arasında bölüşdürür, o cümlədən ayrılmış vəsaitlərin həddi nəzərə alınmaqla mükafatlar verir;

5.8.15. Nazirlik sisteminə işə götürülən işçilərlə əmək müqaviləsinin bağlanılması və xitam verilməsi məsələlərinə dair Nazirliyin vəzifəli şəxslərinin səlahiyyətlərini müəyyən edir;

5.8.16. qanunvericiliyə uyğun olaraq digər səlahiyyətləri həyata keçirir və hüquqlardan istifadə edir.

5.9. Nazirlikdə Naxçıvan Muxtar Respublikasının maliyyə nazirindən (kollegiya sədri), onun müavinindən, Nazirliyin aparatının və strukturuna daxil olan qurumların rəhbər işçilərindən ibarət kollegiya yaradılır. Nazirliyin kollegiyasının tərkibinə digər mütəxəssislər və alimlər də daxil edilə bilər.

5.10. Nazirliyin kollegiyasının üzvlərinin sayı və tərkibi Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

5.11. Nazirliyin kollegiyası öz iclaslarında Nazirliyin fəaliyyəti ilə bağlı məsələləri müzakirə edir və onlar haqqında müvafiq qərarlar qəbul edir.

5.12. Nazirliyin kollegiyasının iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Kollegiyanın qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Nazirliyin kollegiyasının qərarı qəbul edilərkən səslər bərabər olarsa, kollegiyanın sədrinin səsi həlledici hesab edilir.

5.13. Nazirliyin kollegiyasının qərarları protokolla rəsmiləşdirilir və bir qayda olaraq nazirin əmrləri ilə həyata keçirilir.

5.14. Nazirliyin kollegiyasının üzvləri arasında fikir ayrılığı yarandığı hallarda, nazir bu barədə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat verərək öz qərarını həyata keçirir. Nazirliyin kollegiyasının üzvləri şəxsi fikirlərini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə çatdıra bilərlər.

5.15. Zəruri hallarda Nazirliyin kollegiyasının iclaslarında iştirak etmək üçün müzakirə olunan məsələlərlə bilavasitə əlaqəli olan icra hakimiyyəti orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, habelə qeyri-hökumət təşkilatlarının nümayəndələri, mütəxəssislər dəvət edilə bilərlər.

5.16. Büdcə proqnozlaşdırılmasının, muxtar respublika iqtisadiyyatının maliyyələşdirilməsinin, mühasibat uçotu və maliyyə hesabatlarının, nəzarət-təftiş işinin təkmilləşdirilməsi haqqında təkliflərə baxılması üçün mütəxəssislərdən, elmi və digər təşkilatların nümayəndələrindən ibarət Nazirliyin Elmi-Metodiki Şurası yaradıla bilər. Şuranın tərkibi və onun Əsasnaməsi nazir tərəfindən təsdiq edilir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 29 noyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir***

## Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin STRUKTURU

1. Nazirliyin aparatı (şöbələr və sektorlar)
2. Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti İdarəsi
3. Nazirliyin yerli bölmələri

## Ali təhsil ocağında tədbirlər keçirilib



Naxçıvan Dövlət Universitetində Xalq artisti, professor, Azərbaycan Respublikasının Əməkdar İncəsənət xadimi Vasif Allahverdiyevin 60 illik yubiley tədbiri keçirilib. Universitetin rektoru Elbrus İsayev çıxış edərək bildirib ki, Azərbaycan Milli Konservatoriyası universitetin İncəsənət fakültəsinə hər zaman xüsusi diqqət və dəstək göstərib.

Azərbaycan Milli Konservatoriyasının rektoru Siyavuş Kərimi universitetin nəzdində Konservatoriyanın və Musiqi Kollecinin birgə fəaliyyət göstərməsini Naxçıvan musiqi mədəniyyətinə xüsusi töhfə olaraq dəyərləndirib.

Sonra tədbirdə yubilyarın yaradıcılıq yolu haqqında Naxçıvanın Əməkdar mədəniyyət işçisi Etiqad Seyidovun çıxışı dinlənilib. Vurğulanıb ki, Vasif Allahverdiyev musiqi xəzinəmizə dəyərli əsərlər bəxş etməklə yanaşı, pedaqoq kimi peşəkar Azərbaycan musiqiçilərinin yetişdirilməsində əvəzolunmaz xidmətlər göstərib.

Universitetin İncəsənət fakültəsinin müəllim və tələbələrinin ifasında Vasif Allahverdiyevin əsərlərindən ibarət konsert proqramı dinlənilib, “Ömür yolu” filmi nümayiş olunub.

Sonra Naxçıvan Dövlət Universitetinin Musiqi təlimi kafedrasının müəllimi Samirə Cəfərovanın müəllifi olduğu “Bəstəkar ömrünün səhifələri” adlı kitabının təqdimatı olub. Təsviri incəsənət kafedrasının müəllimi Arzu Novruzovun rəsm əsəri yubilyara hədiyyə edilib.

Sonda yubilyar Vasif Allahverdiyev çıxış edərək yubileyin keçirilməsinə görə minnətdarlığını bildirib.

Naxçıvan Dövlət Universiteti və Azərbaycan Dillər Universitetinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş “Tərcüməşünaslığın müasir problemləri” mövzusunda respublika elmi konfransı keçirilib. Konfransda çıxış edən universitetin rektoru Elbrus İsayev universitetlərarası əlaqələrdən bəhs edib, hər iki universitet arasında davam edən birgə əməkdaşlıq məsələlərindən danışıb.

Azərbaycan Dillər Universitetinin rektoru Kamal Abdullayev çıxışında bildirib ki, bu konfrans iştirakçılar üçün böyük elmi araşdırmaların başlanğıcı olacaqdır.

Tədbirdə Azərbaycan Dillər Universiteti Tərcümə laboratoriyasının müdiri, professor Qılıncxan Bayramovun “Tərcümə problemləri”, Naxçıvan Dövlət Universiteti İngilis dili və metodikası kafedrasının müəllimi Ələviyyə Nurinin “Heydər Əliyevin multikulturalizm siyasəti və onun əhəmiyyəti”, Azərbaycan Dillər Universiteti Tərcümə fakültəsinin dekanı, dosent Bənövşə Məmmədovanın “Tərcümənin müasir problemləri” mövzularında çıxışı dinlənilib.

Qeyd edək ki, konfrans 4 bölmə üzrə işini davam etdirib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

### İtmişdir

Culfa rayonunun Bənəniyar kənd sakini Quliyev İmran Ağa oğlunun adına olan JN-356 nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Cəhri qəsəbəsində Məmmədov Yasin Qəhrəman oğluna məxsus olan JN-231[A] və JN-231[B] nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə”lər itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor müavini: MƏMMƏD BABAYEV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 688